Final görüşü avqustun 16-dan 20-dək Braziliyanın San-Paolo şəhərində keçiriləcək.

Hər il təşkil olunan Tətbiqi iqtasadiyyat və biznes üzrə (HPGBC) olimpiada Ümumdünya Gənclərinin Nailiyyəti Təşkilatı tərəfindən keçirilir. Azərbaycanda isə HPGBC yarışının təşkilini öz üzərinə götürən Azərbaycan Gənclərinin Nailiyyəti Təşkilatı 10 ildir ki, Təhsil Nazirliyi ilə əməkdaşlıq edir.

Gənclərin Nailiyyəti proqramının iştirakçısı olan Azərbaycan məktəbliləri HPGBC yarışında 2005-ci ildən bir sıra uğurlara imza atıblar. Dünya üzrə keçirilən bu yarışda Azərbaycan məktəbliləri 2005-ci ildə 8-ci, 2006-cı ildə 3-cü, 2007-ci ildə 1-ci və 2008-ci ildə 6-cı yeri tutublar.

Dünyanın müxtəlif ölkələrini təmsil edən 300 komandanın qoşulduğu builki yarışda da Azərbaycanlı tələbə və şagirdlərin uğur qazanacağına, öz bilik və bacarıqlarını layiqincə nümayiş etdirə biləcəklərinə əminik.